(hekayə)

# TƏNHA QARĞALAR



*Baba BABAYEV,*
*filologiya elmləri doktoru*

*(Əvvəli ötən sayımızda)*

- Hə, sizin yoldaşınız müəlliməm olub. Beşincidən onuncuya qədər mənə dərs deyib. Nə qədər etdisə oxumadım. Elə yaxşı da etmişəm. Oxuyanlar ağlar günə qalıblar. İndi mən, kənddə yox, rayonda böyük biznesmen, ən pullu adam kimi tanınıram. Neyləyək, Allah bizə başqa qabiliyyət verməyib, pul qazanmağın fəndlərini, yollarını verib. Əlbala ağızdolusu lovğalıqla üyüdüb tökürdü.

- Çox gözəl, nəyin var özünə qismət, - deyib "tanışlar"dan uzaqlaşdım.

Axşamüstü "tanışlar"ın hərəsinin qoltuğunda boydan kiçik, bir-birinə həddən ziyadə çox oxşayan iki həprimiş, qacaya oxşayan qızla gördüm.

Matım-mutum qurudu. Yerlilərim dünyanın gözünü kor edib nədi belə, bunlarla gəzirlər? Burda qadın əlindən tərpənmək olmur, İlahi, qədərinə şükür, bu zalım oğlanlarının pulu heç, bəs gəncliklərinə necə sığışdırıb belə əldən qalmışlardan tamarzı, illərin həsrətlisi kimi yapışıblar. Mən kiməm ki, hər halda zövqüm, dərrakəm bunu qəbul etmirdi.

Lüks otaqda qalan tanış oğlanlar torba-torba can dərmanı alıb gətirir, nümayişkaranə insanların qarşısından keçib binaya girirdilər. Kuloklar salafan olduğundan içkilər və meyvələr tez nəzərə çarpırdı.

"Almaz"a paralel olan "Furşet" univermağında gəzişirdim. Bir oğul nəvəmə polski svitir almaq istəyirdim. Tanış hərifləri qızlarla qızıl bölməsindən nəsə aldıqlarını gördüm. Zəndim məni aldatmamışdı. Özləri ağızlarından qaçırtdılar ki, "gözəllərimizə - Oksana ilə Svetlanaya bizdən yadigar qalsın deyə, hədiyyə üzük aldıqlarını gülə-gülə, fəxrlə dedilər".

Tanıdığım gəncin dünyadan xəbəri yox idi. Son on beş ildə ortalığa çıxmışdı. Atası bizim çobanımız, anası isə sağıcımız olmuşdu. Ən çətin, pis gündə yaşayan, çirkli ailə olmuşdular. Rusiyadan hansı yollasa cinayət yolu ilə oğurluq pulu götürüb aradan çıxıblar. Külli miqdarda olan bu pulu biznesə çevirib Rusiyadan əlaqələrini birdəfəlik kəsiblər.

Şərikləri xarici vətəndaş olub, qəfil ürəyi dayanıbmış. Yazıçını, alimi, müəllimini, hərbçisini bəyənməyən bu ala qarğaların gerilərindən - keçmişlərindən xəbərləri olmayan kimi, gələcəkləri də təbii ki, müəmmalarla doluydu.

Belələrinin birinin də cild-cild əsərləri olan, ölkənin tanınmış tarixçi aliminə sataşması, istehzası məndə təəssüf oyatdı, özümə yazığım gəldi.

"Kristal"ın girəcəyində əkilmiş müxtəlif növ güllər oturanların gözləri ilə yanaşı ruhunu da oxşayırdı. Tanrı payından istədiyini alana göz lazımdı bu məkana tamaşa etsin.

Girəcəyin sağında və solunda iri zibil qutuları qoyulmuşdu. Diqqətimi soldakı zibil qutusunun üstündə durmuş, tükləri pırpızlanmış, başı yekəlmiş, çox ağır hərəkət edən bir ala qarğa cəlb etdi. Bu şəhərdə ala qarğalar çoxluq təşkil edirdi. Hara gedirsən orada onları görürsən, bir də göyərçinlər bütün sanatoriyaların qarşısını özlərinə isti məkan ediblər. Onlar hətta balkonlarda ev sahiblərindən yemək də istəyirdilər.

Çörəyin tikələrini çox böyük edəndə nazlanıb, ərköyün uşaqlar kimi yemirlər, gərək xırda-xırda doğrayıb verəsən. Yemək stolumuzdan qalan çörək qırıntılarını göy salfetə büküb balkonda məni səbirsizliklə gözləyən göyərçinlərə verirdim. Dərmanlarımı qəbula başım bir az çox qarışan kimi beş qonağımın "starşisi" - qara, kök, özündən razı göyərçin pəncərinin şüşəsini döycələyir, quruldayaraq məni gözlədiklərini bildirirdi. Qəribəydi, bu "starşi" göyərçin o biri dörd yoldaşını yaxına buraxmırdı. Əvvəlcə yeyib doyur, sonra kənara çəkilib diqqətlə mənə tamaşa edirdi. O birilərsə paylarını yeməkdə idilər. Quşlara baxa-baxa fikirləşirdim ki, hər yerdə, hətta, dil bilib söz anlayanların böyükləri də belə olublar. "Yerin böyüyü, kiçiyi olar" məsəli yaddaşımdan keçdi. Göyərçinlər yeyib doyduqdan sonra həyətdəki su hovuzunun içində olan qız heykəlinin başı üstündə tutduğu məcməyidən su içib gedirdilər.

Nə isə. Qocalıb əldən düşmüş bu ala qarğa hər gün bura gəlir, heç kimə məhəl qoymadan payını yeyib güclə, könülsüz qanad çalaraq, cana doymuş halda uçub gedirdi. Qəribədir ala qarğa səhər tezdən, iş başlamamış, şişman, həmişə qəzəbli görünən deyingən, süpürgəçi işə gəlib zibil qutusunu boşaltmamışdan əvvəl bura gəlib "nahar"ını edirdi.

Qarğanın yaşı məni maraqlandırırdı. O neçə il yaşayıb ki, bu günə düşüb. İnsanın da, heyvan və ağacın da qocalıb əldən düşmüşünü görsəm də ala qarğanın qocasını bu şimal ölkəsində ilk dəfəydi ki, görürdüm. Fikirləşirdim ki, görəsən bu ala qarğa ömrü boyu nə qədər ət yeyib, nə qədər heyvan qanı içib? Təbii ki, bunlar mənim subyektiv düşüncələrimdi. Qarğa da Allahın yaratdığı canlı varlıqlardan biridir. Yaradan kimin alnına nə yazıb, o da onu edir. Quzğun isti qan içib, təzə ət yeyib 40 il yaşayır, ala qarğalar iyimiş ət yeyib üç yüz il yaşayır. Bilmirəm, səhvdi, düzdü. Hansı anatomiya alimi üç yüz il yaşayır ki, bu quşların üzərində apardığı təcrübə və gəldiyi elmi qənaət bizi inandıra bilsin. Mifologiyaya görə belə deyirlər. Yüz illərlə ağızdan - ağıza, yaddaşdan - yaddaşa, insanlara belə gəlib çatıb. Elmi-nəzəriyyəyə qaldıqda isə ən uzun ömürlü qarğalar Amerikadadır və əlli doqquz il yaşayır. Türkiyədə isə bu quşlar iyirmi ildən çox yaşamır. Bu gün də səhər tezdən həmin mənzərəni seyr edirdim. İstirahətə gələnlərin əksəriyyəti xəstə olduqları üçün tezdən yuxudan oyanıb təmiz hava alır, bulaq suyundan içib səhər naharı etdikdən sonra müalicəyə başlayırdılar. Bu müalicəvi bulaq suyunu kəşf edən polyak alimi Teodor Toroseviç olub. O, 1827-ci ildə anadan olub, 1977-ci ildə vəfat edib. Yəni 150 il ömür yaşayıb. Oxucular məni günahlandırarlar ki, Turskaves Ukrayna dövlətinə aiddir. Bu polyak alimi kimdir belə? Tarixə nəzər salsaq XX əsrdə SSRİ kimi nəhəng bir ölkənin cəllad başçısı Stalinlə, Alman imperiyasının dünya ağalığı iddiasında olan, ilk baxışda psix təsiri bağışlayan, tarixə qan içən kimi düşən, Yəhudi millətini ölən gününə qədər soyqırım edən Adolf Hitlerin birgə razılaşmaları nəticəsində Lvov vilayəti Polşa Respublikasından alınıb Rusiyaya (keçmiş SSRİ-yə) birləşdirilib. SSRİ dağılıb tərkibindəki on beş respublika müstəqil olanda Ukrayna respublikası da müstəqil olub və coğrafi ərazi nöqteyi-nəzərindən Lvov vilayəti - Turuskaves də Ukraynaya mənsub olub. Turskaves müalicə suyunu isə dediyimiz kimi öz sahibi - vətəndaşı Teodor Toroseviç kəşf edibdir.

Qarğanın ehmallı və arxayın hərəkətlərinə diqqətlə tamaşa edirdim. Oturacaqda kiçik boylu, ağ baş, yekə, ağappaq bığları olan üzündən cəhənnəmlik yağan bir kişi oturmuşdu. Onu birinci dəfəydi görürdüm. Kişi elə bil cəhənnəmdən bez bilet gəlmişdi. Bunun yaşı nə qədər olar, bu adam gəncliyində nə işlər görüb ki, Tanrı onun üzünə elə bil cəhənnəm pərdəsi çəkib, qara qır töküb, bu əcayib qocaya - ala qarğaya oxşar adama heç kəs yaxın gəlmir, hətta yanında da oturan yoxuydu.

Mənim özünəməxsus intiusiya xarakterim, duyub dərketməm var. Göz yaddaşımdan heç olmaz. İstər qırx, istər əlli il əvvəl görüşdüyüm və ya gördüyüm adamı göz yaddaşımla gözlərindən tanıyıram. Əcaibin gözləri, oturub dalğın düşüncələrə dalan baxışları məni yerimdən oynatdı. Nə qədər diqqət etdimsə yadıma sala bilmədim. Gəncliyimi kino lenti kimi fırladıb, bir gözüm qoca ala qarğada, bir gözüm də bu qarğaya bənzər cəhənnəmdən gəlmişə oxşarda idi.

Birdən qırx üç il əvvəl komsomolda işlədiyim vaxt birinci katib olmuş bu bədheybət şəxs yadıma düşdü. Yerli camaat o vaxtlar bu katibə vampir, yaxud qadın, bir də pul manyakı deyirdilər. Qonşu rayonların əhalisi də bu manyak haqqında hər şeyi bilirdilər. Dağ rayonu olduğu üçün əhali də, ərazi də çox deyildi. Bir kiçik çıqqıltı bütün kəndlərə ildırım sürətilə yayılırdı.

Rüşvət üstündə bir nəfər otağına girib üstündə gizlətdiyi kiçik əl baltası ilə onu doğramaq istəmişdi. Namussuzluğu üstündə yaşadığı evin darvazasına qırmızı parça asmış, maşınının arxasına süpürgə bağlamışdılar. Öhdəsindən gəlmək olmurdu. Allahlıq iddiasında idi. Ev yıxıb qan tökməkdə bu qoca qarğaya dönmüş həm mahir, həm də məşhur idi. MK-da güclü arxası vardı.

Məni rayona - komsomol işinə Mərkəzi Komitədən məsləhət bilmişdilər. Bəlkə bəzi "işlər"də ona mane olam. Atam Dövlət Təhlükəsizlik Komitəsinin polkovniki idi. Özüm də çox savadlı, bacarıqlı, ciddi təşkilatçı kimi tanınmışdım. Bu manqurtla üç il işlədim, ipə-sapa yatan adam deyildi. Hiss edirdim ki, para beyinliyi də var. Məntiqsizdir, nəticə çıxarmağı bacarmır, nə istəyir onu danışır, nə lazımdır, əlbəttə, özünə sərf edən, onu da edir. Tutduğu pis işdən nə utanır, nə çəkinir. Elə bil üzdə adam idi, iç dünyasında yırtıcı vəhşiydi. Kiçik rayonda etmədiyi namərdliklər qalmamışdı. Dərd burasıydı ki, "yuxarılar" da onunla hesablaşırdılar.

Rayondakı vəziyyət məni ciddi narahat edirdi. Büroda bir neçə dəfə qırmızı-qırmızı komsomol sözümü demişdim. Doğrusu, haqqın, ədalətin, qara camaatın tərəfində durmuşdum. Katib Allah deyəni demirdi. Elə bil anası bunu dünyaya var-dövlət hərisliyindən, bir də qadından - uxajorluqdan ötrü gətirmişdi. Qadın işçilərinin biriylə - ona roza mamalıq edənlə camaatın namusuna toxunurdu, pullandıqca, daha da qızışırdı. Babalı öz boynuna olsun, mən komsomolda işləyəndə roza mama, hətta ona gənc qızını da "peşkəş" etmişdi. Bir həkimi də bu katibin "qurban"ına çevirdikdən sonra çıxılmaz vəziyyətdə qalıb həmin qızı roza-mama öz oğluna almışdı.

Bir gözüm qoca ala qarğanın könülsüz zibil qutusunu eşələyib, nəyisə tapıb yeməyindəydisə, bir gözüm də tənha oturmuş, çox uzaqlara diqqət kəsilmiş, nəyisə xatırlayan, bəlkə də eləmədikləri bu gündə də onu yandıran keçmiş, əzazil katibdəydi. Üst-başı bəzi əldən düşmüş, alkoqol, nimdaş geyimli qoca ruslar kimi idi. Sanatoriyada belə ruslar çox idi. Kim bilir bu on illiklərdə başına nələr gəlib. Məsəl var, deyir: "nə tökərsən aşına, o da çıxar qaşığına". İnsanlığa sığmayan əməlləri bəlkə də qarşısına çıxıb. Bir şikəst oğlu vardı, kim bilir taleyi necə oldu?

O vaxtlar katibin tutduğu qeyri-ciddi mövqeyi haqqında təfsilatı ilə atama danışdım. Atam məsələni Dövlət Təhlükəsizlik Komitəsinin sədrinə məruzə edir. Sonra mənim təyinatımı şəhər rayonlarından birinə dəyişdilər. O, üç il ömrümə yazılmayan, yaddaşa gəlməz xatirələr idi, zülmətdə zillət çəkdim. Ac da, susuz da qalarsan, yaralanarsan, xəstə düşərsən, başına nə iş desən gələ bilər, amma bu katibin etdikləri bəd əməlləri bilmirəm, Allah niyə götürürdü. Onun elmə, insanlığa sığmayan əməlləri gəncliyimi, tərbiyəmi məhv etdi, dünyadan, əlimi üzdüm.

İndi o illərin "fatehi" qarşımdaydı. Heç nə bilmirdim. Sadəcə bu görüntüsünü intiusiyam diqtə edirdi ki, gördüyü əməllərin bəlasını çəkib. İndisə axırıdı. Qoca ala qarğa ondan daha vüqarlı, peşman çəkmiş kimi görünmürdü.

Üç gündən sonra onu uca, sıx küknar ağaclarının kölgəsində, ən sonuncu oturacaqda dərin xəyala daldığını gördüm.

Rus dilində salam verib oturdum. Öz dünyasındaydı. Ətrafa kor kimi baxırdı. Gözləri bir nöqtəyə zillənib qalmışdı. Təbii ki, məni nəinki tanımaz, heç xəyalına da gətirməzdi. O vaxtlar qarabuğdayı, zil qara saç, nazik, o vaxtın dəbdə olan, müğənnilərin bığı kimi bığ, necə deyərlər, şümal, həm də dolu bədənli gənc bir oğlanıydım. İndisə, o görüntülərdən əsər-əlamət belə qalmamışdı. O illəri ancaq şəkillərimə baxıb özümü xatırlayıram. Qoca katib yəqin ki, heç düşüncələrindən də ayrılmadı. Nəinki məni tanımağa cəhd etsin, yaxud milliyyətimi öyrənsin. Saralıb, sınıxıb, saçları ağappaq olmuş birisiydim.

- Ağsaqqal, nə dərin düşüncələrdəsiniz?

- Keçmişi xatırlayıram. Mənə bu üç gündə yaxın durub salam verən olmayıb. nə əcəb sizdən? Siz kimsiniz?

- İstirahət edənlərdənəm, azərbaycanlıyam.

- Bəs, siz niyə bu günə düşmüsünüz? Gözlərinizdən çox yaşlı deyilsiniz?

- Yox, yaşım var, amma diabet xəstəsiyəm, təzyiqim də, qıç ağrılarım da rahatlığımı əlimdən alıb, gecəm-gündüzüm yoxdur.

- Qoca: Hə, indi nə cavan var, nə qoca. Zamanın üzü qara olsun, hərəyə bir cür "sığal" çəkir, fəqət geci-tezi olur.



*(Davamı 15-ci səhifədə)*

*(Əvvəli 13-cü səhifədə)*

Xəstəliklər də XXI əsrdə daha da tüğyan edir. Ölüm də, xəstəliklər də cavanlaşıb. Heyvanlar, quşlar, meyvə-tərəvəz də xəstəliklərdən məhv olub gedir. Davadərman da qarşısını ala bilmir. Bir də bu şimal ölkəsində, eşidirsən məni, səninləyəm, Lvovu, Turskavesi deyirəm, havalar çox sərindir, torpaq münbit, meşələr çox, buranın adamları da uca boy, yaraşıqlı, sağlamdır, meyvələri və quşları da. Ala qarğaları deyirəm, elə sazdılar ki, amma mənim kimi qocalıb əldən düşmüşləri, yalqız qalanları da çoxdur.

- Düz deyirsiniz. Ağsaqqal, deyəsən taleyinizdən çox gileylisiniz. Həyatınızda nə əhvalatlar baş verib? Üz-gözünüzdən çox məşəqqətlər çəkənə oxşayırsınız? Danışın, qərib yerdir, ürəyinizi boşaldın.

- Danışılası əhvalatlar deyil, yazıçı, alim lazımdır mənim dərdimi qələmə alıb kitab bağlasın.

- Yazıçı, alim olmasam da, insanam, dərdinə bu ahıl vaxtında şərik olmaq istəyirəm.

- Qoca güclə eşidiləcək xırıltılı səslə: - Bütün ailəmi vaxtsız itirmişəm. Xəstə bir oğlum vardı. Dərdinə əlac tapılmadı, Moskvadan belə apardım. Onda vəzifədəydim, sözümün dalını da, qabağını da qılınc kəsirdi. On doqquz yaşında dünyasını dəyişdi. Bir qızım vardı, tibb institutunun dör-

gün üçün üç otaqlı mənzilimdə parketin altında gizlətmişdim. İyirmi beş dəst Leninqrad, Kiyev şəhərlərindən aldığım brilliant dəstlər, qalanlarsa iki yüzdən çox onluq qızıl idi.

Xidmətçini tanıyırdım. Çox da yaşlı deyildi. Katib işlədiyim rayonda mənə yaxın olan işçimin qızıydı. Arvad özü gəlib qızını mənə təqdim edib, "hər bir işini görəcək, - dedi". İnandığım, tanıdığım olduğundan, qancığın cavanlığına oxşayırdı, gözəlliyinə aldanıb evə qulluqçu götürdüm.

Qışda şəhərdə, yayda Bilgəhdə mənimlə olurdu. Dünyalar qədər istəyirdim onu. Etibarsız çıxdı, mənə xəyanət etdi, vardövlətimin hamısını yığışdırıb apardı.

Qocanın gənc qıza meyli, istəyi çox olur. Bir gün mənim yataq otağımı süpürüb silirmiş. Nə isə parketin biri taxta silənə ilişib yerindən çıxır. Qız nə qədər edirsə parketi yerinə sala bilmir. Kuxnadan çəkic gətirib döyəcdiyəndə o biri üç parketi də yerindən oynadır və qızıları görür. Vəssalam.

Mənə məktub yazıb qoyub ki, "rayona gedirəm, anam qəzaya düşüb, gec gələcəyəm".

Sən demə anasını da rayondan gətizdirir, qatara bilet alıb Omska, sonra Arxangelskə, nə bilim hara, cəhənnəmlərinə, gorlarına gediblər. Allahın lənətinə gəlsinlər, fahişələr başıma elə müsibət açdılar ki, halal arvadım qaçanda elə mü-

# TƏNHA QARĞALAR

düncü kursunda götürüb qaçdılar. Altı ay saxlayıb boşadılar ki, xasiyyətimiz tutmur. Sən demə, elə deyilmiş, qana - qan ediblər. Güya mən vəzifədə olanda həmin oğlanın anasına sataşmışam. Bəhanədir, deyirlər də, namuslu partiya işçisi olmuşam, elə işlərlə, ay tövbə ömrümdə məşğul olmamışam. Arvadım da elə.

- Nə olub arvadına, o da öldü, yoxsa...

- Yox, iyirmi dörd günlük putyovka alıb Soçi şəhərinə istirahətə getmişdim. Vəzifədəydim - birinci katibdim. On gündən sonra teleqram gəldi ki, təcili geri qayıt.

- Bədbəxt hadisə olmuşdu?

- Elə bir iş idi. Səkkiz il birinci katib işləmişdim. Arvadım olanı-qalanı, brilliant-qızılları yığışdırıb sürücümə qoşulub qaçıb gedib Rusiyaya. Hara getdiklərini deyən, bilən, görən olmadı. Aparat da məni tənbeh etdi, təşkilatçılıqda, idarə etmədə bacarıqsızlığımı nəzərə alıb məni haqq yerinə qoydular.

O vaxtlar Mərkəzdən rəhbərlik etdiyim rayona komsomol komitəsinə birinci katib göndərmişdilər. Qırmızı komsomolçu idi. Mənimlə yola getmirdi, nə bilim haq burdan gəldi, ədalət ordan getdi, başıma oyun açdı, üç il işləyib rədd olub getdi. Deyəsən, Mərkəzi Komitəyə məlumatlar veribmiş, hiss etdim ki, o gədə nə qədər güclü imiş ki, məni işdən çıxartdırdı. Mənə bir Allahın gücü çatardı. O vələduzna həyatımı alt-üst etdi. Bədbəxt, zavallı qoca bilmirdi ki, yanında oturan o vələduzna komsomolçu indi Təhlükəsizlik Nazirliyinin generalıdır. Qızım da boşanandan sonra pozuldu, qarşısını ala bilmədim. Günü barlarda, nə bilim harda, cəhənnəmdə, gorda keçirdi.

Bakıda üç otaqlı xruşşovka, bir də Bilgəhdə dənizin kənarında dəbdə olan, yeni proyektdə bir villa tikdirmişdim. Yay aylarında villamda qalırdım, qışda şəhərə gəlirdim. Bu ahıl vaxtımda bir qadın ev-eşiyimin təmizliyinə, bişdüşür işinə, pal-paltarıma baxırdı. Vəzifədən qalan-qalmazımı, dar

sibət görməmişdim. İndi Bilgəhdəki villamı satıb oturmuşam xarabamda. Qadının fitnə-fəsadına fələyin də gücü çatmaz, - deyib ah çəkərək susdu. Bir az sonra:

- Ay kişi, bax bu ağılasığmaz hadisələrə görə bu günə qalmışam. Tənha yaşayıram. Qızın da nə öldüsündən, nə də qaldısından xəbərim yoxdur. Qohum-əqraba da, üzü dönmüşlər heç vaxt mənimlə maraqlanmırlar. Mən də nə ölülərinə, nə xeyirlərinə yaramıram, getmirəm.

- Ağsaqqal, o vələduzna komsomolçu deyirsən ha, o mənəm, general Bağırov.

- Qoca dönüb zəndlə üzümə baxdı. Cibini eşələyib kirli dəsmalının arasından eynəyini çıxardıb gözlərinə taxdı. İki əlilə başını tutub, lənət olmuş, yenə sənsən? - dedi.

Gecədən başlayan yağış səhər günortaya qədər kəsməmişdi. Günün ikinci yarısı yağışın kəsməsilə günəşin çıxması bir oldu.

Hava soyumuşdu. Avqustun on dördü idi. Qalın geyinib həyətə düşəndə ala qarğanın "yemək stolu"nun qarşısındakı dörd-beş adamın ayaq üstə durduğunu görüb, o səmtdən keçdim. Qoca nə isə danışıb ağlayırdı.

İşdən xəbərdar olmayanlarsa, "yazıq qoca, fağır, bədbəxt, kimsəsiz," - deyib təəssüflənirdilər. Bir kişi isə: "bu qoca dəli olub, it kimi ulayır, - " dedi. Ala qarğa isə kənarda durub, maddım-maddım qocanın hərəkətlərinə tamaşa edirdi.

*Truskavesk,*
*15 avqust, 2017*



**Kredo.- 2018.- 17 may.- S. 15.**